# Müəllim



**Ömür dediyin cəmiyyətə bəxş olunan ziya və sevincin qədəridir. Belə bir həyat eşqində müəllim ömrünün, pedaqoq taleyinin öz yeri var. 75 yaşlı bizim Qəzənfər müəllimin həyatı kimi.**

...Keçən məktəb illərim xatirimdə bir lent kimi qabarıb, sonra da keçib getdi. Mən də üz-gözündən, davranışından əsl müəllim nuru yağan, tərbiyəni, təhsili qiymətləndirən bu dəyərli ziyalının şagirdlərindən olmuşam. Cəmiyyətdə bir fərd kimi formalaşmağımızda yüzlərlə həmvətənlimiz kimi bu təhsil işçisinin rolu böyükdür.

Qəzənfər Sultanov 1940-cı ildə Sabirabad rayonunun Əsədli kəndində anadan olub, orta təhsilini M.Ə.Sabir adına 1 saylı orta məktəbdə alıb, 1969-cu ildə isə indiki Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsini bitirib. Pedaqoji fəaliyyətə 1970-ci ildə boya-başa çatdığı Sabirabad rayonunda başlayıb. Çox keçməyib ki, təlim-tədrisdə işgüzar və təşəbbüskar müəllim kimi tanınıb. Onun 1980-ci ildə M.Ə.Sabir adına 1 saylı şəhər orta məktəbə direktor vəzifəsinə irəli çəkilməsində bu xarakterik xüsusiyyəti əsas rol oynayıb. Beləliklə, 2014-cü ilə kimi bu təhsil ocağının inkişafında biliyini, pedaqoji bacarığını Vətən övladlarından əsirgəməyib. Onun öz peşəsinə, müəllim adına hədsiz ehtiramı, vətəndaş mövqeyi və elm öyrətmək ehtirasını nəzərə alaraq Prezident İlham Əliyevin 3 oktyabr 2008-ci il tarixli Sərəncamı ilə Qəzənfər müəllim “Azərabaycan Respublikasının Əməkdar müəllimi” fəxri adı ilə təltif olunmuşdur.

Ömrünü gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş Qəzənfər Sultanovun digər təltifləri də var. O, 1989-cu ildə “Əmək Veteranı” medalına, 2007-ci ildə “Qabaqcıl təhsil işçisi” döş nişanına, müxtəlif illərdə Sabirabad Rayon İcra Hakimiyyətinin Fəxri fərmanına və s. diplomlara layiq görülmüşdür. Qəzənfər Sultanov 1975-ci ildən Azərbaycan Respublikası Pedaqoji Cəmiyyətin üzvüdür. Onun dərs dediyi və rəhbərlik etdiyi məktəbin məzunları respublikamızın elm və iqtisadiyyat sahəsində əmək fəaliyyətlərini müvəffəqiyyətlə davam etdirirlər. Bütün bunları görmək və qürur duymaq əsl müəllim ömrünün bəzəyidir. 75 yaşı tamam olmuş Qəzənfər müəllim ziyalı ömrünü bahar eşqi ilə yaşamaqdadır.

**İradə ZÜLFƏLİQIZI.**